# Qəhrəmanlarımızın içində həmin itirilmiş zaman axtarışı var

*Mirmehdi Ağaoğlunun müəllifi olduğu "Bu gün səbr elə" romanı barədə tənqidçi Ülvi Babasoyla söhbəti*



**Soldan: Mirmehdi Ağaoğlu və Ülvi Babasoy**

Qafqaz Universiteti Sosial və Hümanitar Elmlər İnstitutu Türkologiya şöbəsi və "Kaspi" qəzetinin birgə layihəsi olan "Kitab barədə" layihəsinin məqsədi odur ki, kənar dedi-qodular ədəbiyyatda yer almasın, yazıçılar ənənəvi "nə yazırsınız", "filan məsələ haqqında nə düşünürsünüz", "övladınızın da bu sənətlə məşğul olmasını istərdinizmi?", "ikinci dəfə doğulsaydınız, yenə yazar olardınızmı" kimi bezdirici, çeynənmiş suallara cavab verməli olmasınlar, kitablarından danışsınlar. Söhbət sırf müsahibin, ədəbin hansısa kitabı barədə olsun. Belə olan halda cəmiyyətdə həm o kitab barədə fikir formalaşa bilər, həm kitab təbliğ edilər, həm də qələm adamının əsərini oxumadan, "ümumi suallarla" baş girləyənlər bunun müəllifə hörmətsizlik olduğunu dərk edərlər. Budəfəki müsahibimiz yazıçı Mirmehdi Ağaoğludur. Onunla bu yaxınlarda çapdan çıxan "Bu gün səbr elə" kitabı barədə danışdıq.

**- Mirmehdi, gəl söhbətimizə sonuncu kitabınla başlayaq: "Bu gün səbr elə" romanında iki zaman var. Biri oxucunun izlədiyi süjet xəttindən ibarət zaman. Bir də itmiş, parçalanmış zaman silueti dayanır arxa fonda. Məhz ikinci zamanı necə izah edərdin?**

- İkinci zamanı əsərdə Nəsiminin Bibiheybətdəki söhbətləridir, öz iç monoloqları. Mənə elə gəlir ki, bu itmiş zamanın axtarışı, Nəsimi ilə Dilbərin xoşbəxtliklərinin axtarışlarıdır. Dilbərlə Nəsimi kasıb, yoxsul bir ailə idilər. Onlar daima böyük ümidlərlə yaşayırdılar. Çünki, ailə sevgi üzərində qurulmuşdu deyə daima romantik filmlərdə, əsərlərdə olduğu kimi bir yuva arzulayırdılar və onun həsrətilə yaşayırdılar. Ümumiyyətlə, cəmiyyət də belədir. Müxtəlif xalqlarda da cənnəti, qurtarıcını gözləmək ümidi var. Məsələn, Xristiyanlıqda İsanın yenidən zühur etməsini gözləyirlər, yəhudilikdə, buddizmdə də Məsih anlayışı var. Yəni bütün dinlərdə "xilaskar gələcək" anlayışı var. Xilaskar əslində ümiddir ki, bütün insanlıq o ümidə doğru can atır. Bizim qəhrəmanlarımızın da içində həmin itirilmiş zaman axtarışı var ki, gün gələcək onlar xoşbəxt olacaq. Amma əsər irəlilədikcə onlar xəyal qırıqlıqları ilə qarşılaşırlar. Görürlər ki, xəyallarında qurduqları həyatla gerçək həyat tamam fərqlidir. Bir krediti bitirib o birisinə keçirlər. İkicə övladın gələcəyi üçün heç nə edə bilmirlər. Həmin o iki zamanın toqquşması da burda baş verir ki, bu da real nəticəyə gətirib çıxarır. Nəsimi də reallıqla razılaşır, Dilbər də. Hərçənd işə zarafatla girişmişdilər. Amma görürlər ki, başqa çıxış yolu yoxdur. Ona görə də bu yola əl atmalı olurlar.

**- O zaman belə bir sual yaranır, təkcə bir yazıçı deyil, eyni zamanda bir ziyalı, bir oxucu kimi bu ikinci zamanın itməsini necə izah edərdin?**

- Əslində bu reallıqdı, mənim məqsədim orda nəyisə təqdim etmək deyil, göstərməkdir. Tipik bir Azərbaycan ailəsi necə yaşayır, onun həyatı necədir. Mən bu həyatı göstərməyə çalışmışam. Madiyyata bağlılıq ailənin sanki sonunu və ya sənin təbirinlə desək, zamanın itməsinə gətirib çıxarır.

**- Yəni, sadəcə bir ailənin daxili problemi kimi görürsən məsələni?**

- Bu ümumiləşdirmədir. Əsərdəki obrazlar həyatdan götürülüb. Amma mən ora illər ərzində gördüyüm bütün ailələrdən müəyyən detallar əlavə etmişəm. Onlar əslində tipik bir yoxsul Azərbaycan ailəsinin ümumiləşmiş obrazlarıdır. Belə deyək, məsələn, hal-hazırda Rusiyada 2 milyondan çox azərbaycanlı işləyir. Deməli, Azərbaycan qadını könüllü surətdə ərini ora işləməyə göndərməyə razıdır. Məgər o bilmir ki, əri gedib orda başqa qadınla da görüşəcək, hətta bir rusla ailə qurub yaşayacaq. Ona müəyyən qədər pul göndərəcək. Təki burda maddi ehtiyaclar ödənsin deyə, itirməyə bir şey olmayanda son variant kimi bir çox insanlar buna hazırdır. Yəni Dilbərin də elədiyi əslində qeyri-adi bir şey deyil. Sadəcə burda Dilbər şüurlu şəkildə, bilərəkdən bu addımı atır, amma, ixtiyari bir azərbaycanlı qadını yoldaşını harasa işləməyə göndərəndə düşünür ki, gedib işləyib, pul qazanıb gələcək. Bu baxımdan, Dilbər daha səmimidir.

**- Azərbaycan insanının dramında Dilbərin tragikomediya atmosferinə düşməsi Kafkaist bir çevrilmədirmi?**

- Sənin demək istədiyin Kafkadakı çıxılmazlıq məsələsidir. Bəlkə də bunu Nəsimi ilə Dilbərin həyatındakı çıxılmazlıqla müəyyən mənada əlaqələndirmək olar. Əslində onların tapdıqları yolun özü belə bir çıxılmazlıqdır, çünki o labirintdən çıxa bilmirlər.

**- O zaman belə bir sual da yaranır: Romandakı rəmzi, ağrılı-acılı detallar və Dilbərin kosmosla, Tanrıyla ünsiyyəti çıxış yoludurmu?**

- Əsərin əvvəlində Dilbərin Tanrı ilə bağları o qədər də yoxdur. Sonlarına doğru bu bağ yaranır. Mənim Dilbərim yoxsul olsa da ümidini itirməyən, daim şən, özünə güvənən qadındır. Bəlkə də onun siqaret çəkməsi rahat qadın olmasına, yoxsulluğu çox da dərd etməməyinə necə deyərlər, "cool" olmasına işarədir. Buna görə də əvvəldə onun Tanrı ilə bağlılığı qabarıq görünmür. Əslində bu cəhətdən roman İmadəddin Nəsimi və onun hürufilik ideyaları ilə müəyyən mənada səsləşir. Yəni hürufilər deyirdi ki, Allah səndə cəmlənib, özünə inam da elə budur. Əsərin sonlarına doğru isə Dilbər itirə-itirə getdiyi üçün daxilindəki rahatlıq da, ümid də itir, çarəsizləşir. Bu zaman da ünsiyyət qurmaq üçün yalnız Allah qalır. Dərdini yalnız Allaha deyə bilir, dərdini deyəsi kimsə yoxdur.

**- Yəni Dilbərin bu vəziyyətini çıxış yolu görürsən, eləmi?**

- Əslində Allahla ünsiyyət yolu duadır. Amma, burda Allahla ünsiyyət sosial şəbəkə vasitəsilə baş verir. Sosial şəbəkə sanki məbəd rolunu oynayır, ora girib status yazmaqla dualarını Allaha çatdırmış olursan. Dilbərin yazdığı statusu heç kəs görmür, bunu yalnız Allah görəcək. Deməli bu status elə duadır. Bu məqam sosial şəbəkələrin insanların həyatında sakrallaşmasına da bir işarədir.

**- Doğrudur. Gündəlik həyata baxsaq, insanlar sevincini, kədərini, hər bir anını orda paylaşır, yaşayır.**

- Bir oxucu əsəri oxuyandan sonra, mənə dedi ki, eynilə mən də o cür edirəm. Statusları yazır, amma, "Ancaq mən" funksiyasını seçdiyi üçün özündən başqa heç kəs görmür. Feysbuk həm də gündəlik rolunu oynayır. İnsanlar artıq içlərində olan duaları, arzu və istəkləri feysbukda ifadə edirlər. Bu da yəqin Tanrı ilə yeni bir bağlantı növüdür.

**- Əslində çox doğru bir yanaşmadır. Çünki, insanların yalnızlıq anlayışı orda öz əksini tapır. Ordan çıxanda insanlar özlərini yalnız hiss etdiklərindən, sosial şəbəkələr bir növ təsəlli məkanıdır.**

- Bəli, virtual dünya real dünyanı üstələyir. Tutaq ki, bizim virtual aləmdə 5.000 dostumuz var, amma, realda 30 nəfər dostum ancaq olar. Məsələn, sosial şəbəkədə bəzən üzgün olduğumuzu, dərdimizin olduğunu paylaşırıq, onu minlərlə adam görür, amma, realda onu bəlkə də iki nəfərə deyə bilmirik. Beləcə modern insan tipi yaranır. Dilbər də bu dövrün adamıdır. Transformasiya onda da baş verir.

**- "Bu gün səbr elə"də məqsədin sosial problemləri teatrlaşdırmaqdır, yoxsa qəribə bir hadisə olan ər alış-verişi ilə oxucunu heyrətləndirmək?**

- Belə deyim, əsər yazmaq üçün iki cür impuls tipi var: birincisi, əvvəl ideya olur, bu ideyanı sən əsərləşdirirsən, ikincisi də gördüyün və ya eşitdiyin bir hadisə, bir adam, bir söhbət, bir səs, bir görüntü sənə impuls verir. Məndə ikinci tip üstünlük təşkil edir. Düzdür, bəzən bir ideya tapıb fikirləşirəm ki, bunu necə əsər edim. Məsələn, "Alman malı" hekayəsi bir ideyadan doğub. Bəzən bir adamın danışığı, gülüşü belə bizə böyük bir əsər yazdıra bilər. Bu əsərin ideyası da bir dostumla söhbətdən doğdu. Bir azərbaycanlı qadın ərini kreditə verərmi? Əslində əri kreditə vermək metaforası, kredit alandan kredit verənə çevrilmək, həm də ən müqəddəs şeyi kreditə qoymaq, öz ruhunu şeytana satmaq kimidir. Dilbər "Faust", "Doriyan Qreyin portreti"indəki kimi öz ruhunu şeytana satır. O, öz ruhunu, öz sevgisini, ailə müqəddəsliyini kreditə verir ki, maddiyyatını qazansın. Əsər məhz buna görə bir azərbaycanlı ailəsinin düşdüyü faciənin təcəssümüdür.

**- Sosial problemləri rituallaşdırmaq digər romanlarında da özünü göstərir. Sizif mifinin yeni yozumu olan "Küləyi dişləyən" və mənəvi saflığın, platonik eşqin deformasiyası, yaxud da təbii halı "Görüş" romanında da bu tendensiya davam edir. Bildiyimiz kimi ritualdan kənarda hərəkət mümkünsüzdür. Buna "Bu gün səbr elə"ni də əlavə etsək. Həyatın sənin romanlarında folklorik yansımasını necə şərh edərdin?**

- Bayaq da danışdıq ki, Nəsimi və Dilbər Azərbaycan ailələrinin ümumiləşmiş obrazıdır. Əsərdəki toy xətti də maraqlı detaldır. Bununla Azərbaycan insanının dəyişməsini, mühitini, bizim o itirdiyimiz zamanın axtarışlarını toy xəttində verməyə çalışmışam. Bu əslində Azərbaycanın güzgüsüdür. Azərbaycan toyların fonunda necə dəyişir. Nəsimi ilə Dilbər 90-cı illərdə evlənmiş ixtiyari bir azərbaycanlı ailəsidir. Onların bu günə qədər keçib gəldiyi yolun bir növ xəritəsidir bu əsər.

"Görüş" romanında də, "Küləyi dişləyən"də də kifayət qədər sosial problemlər var. Əslində məni bəzi dostlar qınayırlar ki, sən sosial problemlərə çox qaçırsan. Amma məqsədim sosial problemi çılpaqlığı ilə təqdim eləmək deyil, əksinə, onu bədii materiala çevirməkdir. Məsələn, "Küləyi dişləyən"in çox dərin mifik özəkləri var. Əsərin ilk variantını yazanda ordakı hər bir qəhrəman yunan mifologiyasındakı bir tanrı idi. Hətta onların ilkin adlarını da həmin mifologiyadakı allahların adına uyğun qoymuşdum. Məsələn, Hətəmov ilkin variantda Hermesov idi və s. Amma sonradan gördüm ki, əsər çox alleqorik alınır. Ona görə də mən hər bir Allahın adının baş hərfindən istifadə edib indiki adlar sistemini seçdim. Bir növ kodlaşdırdım. Ola bilsin kitabın çapı zamanı bu kodlaşdırmanı göstərmək üçün poliqrafik bir çıxış yolu tapmaq olardı. Təəssüf ki, bunu etmək imkanımız olmadı, onda mən belə elədim; qəhrəmanlara elə soy adlar seçdim ki, baş hərfi ona uyğun gələn yunan Allahının baş hərfi ilə uyğun gəlsin. Məsələn, Hətəmov yunan mifologiyasında Hermeslə eyniləşdiyi üçün ona elə familiya seçdim ki, baş hərfi "H" olsun. Ümumiyyətlə, "Küləyi dişləyən" bütövlükdə kodlar sistemidir. Onun üzərindən o sosial pərdəni, əti, qanı götürsək, biz mifik skeleti tapacağıq. Yəni, o ritual modern dünyada da davam edir. "Görüş" romanı da Elçinin "Bir görüşün tarixçəsi" əsərinə göndərmədir. Elçin orda platonik məhəbbətdən danışır, mənsə həmin məhəbbəti real, praktik bir şeyə çevirmişəm.




**- "Bu gün səbr elə" romanında gəldiyin qənaət hər şeyin teossenaridən asılı olmasıdırmı?**

- Teossenari - yəni Allahın insanların taleyini müəyyənləşdirməsi, qəzavü-qədər... Çətindir Bilmirəm nə deyim

**- Dilbərin sondakı durumu, o statusu, İlahiyə sığınması. Təkcə məsələ bundan ibarət deyil. Mətnin verdiyi əhval-ruhiyə də bunu göstərir, sanki bu belə olacaqmış kimi.**

- İndi burda bir məsələ də var. Biz bir şeyi nəzərdən qaçırırıq ki, bu əsər epiloqa qədər bütün bu söhbət elədiklərimizdi. Amma, epiloqdan sonra tamam başqa bir şey var. Mən oxucuya ikili sonluq vermək istəmişəm. Deməli, burda həm qəzavü-qədər, həm də qəzavü-qədərdən qaçış var.

**- Normal həyatda da bunu belə götürə bilərik ki, bütün hər bir şey teossenaridən ibarətdir. Yaşadığımız hər şey. Hardasa bizim öz daxilimizdəki inanc sisteminin özü belə bir teossenariyə bağlanır. Demək istədiyim təkcə bu deyil ki, mən hər şeyə boyun əyim ki, hər şey Allahın qədəri imiş. Bu yox.**

- Əsəri oxuyanda görürük ki, əslində Dilbər o çılğın addımı atmayıb. Ərini kreditə verməyib. Epiloqdakı qəhrəmanla müəllifin söhbətində bunu etiraf edib. Əslində, bu nə deməkdir?! Dilbər taleyin ona yazdığı qəzavü-qədərə boyun əyir, tabe olur. Mənim təqdim elədiyim sonluqda Dilbər sonda yenə əri ilə - Nəsimi ilə bir yerdə qalır. Yenə də həyat öz axarı ilə davam edir.

**- Ayağının sızıltılarına dözərək yaşamağa davam edir... Məncə, ən maraqlı tapıntılardan biridir. Mətndə postmodern xüsusiyyət də var. Postmodern mətnin ən önəmli xüsusiyyətlərindən biridir ki, oxucuya bunun həm də bir qurmaca olduğunu, gerçək həyat olmadığını bildirmək. Sən də buna epiloqda tam şəkildə möhürünü vurursan. Bu bizə həm də estetik zövq yaşadır.**

- Əlbəttə burda həm də bir oyun var. Oxucu kitabı son iki səhifəyə qədər oxuyub tamam başqa ovqata köklənir, axırda o ikicə səhifəni oxuyandan sonra əvvəlki ovqatdan əsər-əlamət qalmır. Və epiloq da əslində o verilən sonluğun məntiqi davamı deyil, tamam ayrı bir şey çıxır ortaya. Əsərin bütün o məğzini inkar edən bir sonluq yaranır. Burda məqsədim ilk növbədə odur ki, oxucu bunun bir qurmaca olduğunu görsün. Çünki əsərin sentimental tərəfi çox ağır basır, buna görə onu dağıtmaq, o realist qatı pozmaq istəyirdim, bax beləcə qurmacanı vermək zərurəti yarandı...